*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 aprel 2017-ci il № 28 (2145) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan bu gün nəinki bölgə çərçivəsində, artıq dünya miqyasında etibarlı tərəfdaş, müstəqil, ləyaqətli ölkə kimi özünü təqdim edib

*Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.*



İclası giriş nitqi ilə açan dövlətimizin başçısı qeyd etdi ki, birinci rübdə Azərbaycan bütün sahələrdə çox sürətlə inkişaf edib, beynəlxalq mövqelərimiz möhkəmlənib, ölkə daxilində proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf təmin edilir, bütün sosial məsələlər öz həllini tapır. "İqtisadiyyatımızın əsas göstəriciləri qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafıdır. Bütün bu istiqamətlər üzrə yaxşı nəticələr var. İqtisadiyyatın qeyri-neft sektoru 2,4 faiz artıbdır, qeyri-neft sənayemizin artımı 2 faiz səviyyəsində olubdur, kənd təsərrüfatı 3,5 faiz artıbdır. Xüsusilə qeyd etmək istəyirəm ki, bitkiçilik 20 faizdən çox artıbdır. Bu, onu göstərir ki, bizim gördüyümüz işlər, ciddi islahatlar, investisiyalar artıq öz nəticələrini verir".

Azərbaycanın beynəlxalq əlaqələrinə toxunan Prezident İlham Əliyev birinci rübdə ölkəmizin maraqlarının təmin edilməsi baxımından uğurlu xarici səfərlərini, onların əhəmiyyətini qeyd etdi, Davos Ümumdünya İqtisadi Forumunda, Münxen Təhlükəsizlik Konfransında iştirak edərkən ölkəmizin mövqeyini, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçı siyasəti ilə bağlı mövqeyini dünya ictimaiyyətinə bir daha çatdırdığını bildirdi.

Dövlət başçısı, həmçinin, vurğuladı ki, birinci rübdə Azərbaycanda V Qlobal Forum keçirilmişdir. Bu da artıq dünya miqyasında önəmli beynəlxalq tədbirlərin sırasına daxil edilib. Bu Foruma dünyanın 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçıları iştirak etmişlər.

Amerika və Rusiya ordularının Baş Qərargah rəislərinin birinci görüşünün Bakıda keçirilməsi barədə danışan ölkə rəhbəri xüsusi olaraq vurğuladı: "Hər iki ölkə Azərbaycanı birinci görüş üçün seçməklə həm bizə olan hörmətini növbəti dəfə ifadə edir, həm də bu, bizim rolumuzu əyani şəkildə sübut edir. Azərbaycan bu gün nəinki bölgə çərçivəsində, artıq dünya miqyasında etibarlı tərəfdaş, müstəqil, ləyaqətli ölkə kimi özünü təqdim edib".

Həmişə olduğu kimi, ilin birinci rübünün yekunlarına dair Nazirlər Kabinetinin iclasında da dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında danışdı və münaqişənin həlli yolları barədə Azərbaycanın mövqeyini bir daha bəyan etdi. Ermənistanın danışıqlar prosesini hər vəchlə dayandırmağa, onu boykot etməyə çalışdığını, ancaq buna nail ola bilməyəcəyini qeyd edən Azərbaycan Prezidenti bildirdi: "Minsk Qrupunun həmsədr ölkələri artıq bir neçə dəfə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Bu, əslində, işğala son qoyulması deməkdir. Hesab edirəm, Ermənistana, onun işğalçı siyasətinə Minsk Qrupu tərəfindən təzyiq daha da güclənməlidir ki, onlar beynəlxalq normalara riayət etsinlər və işğala son qoysunlar".

Danışıqlar prosesində Azərbaycanın mövqeyində heç bir dəyişikliyin baş vermədiyini, ərazi bütövlüyü prinsipinin danışıqlar mövzusu olmadığını bildirən dövlət başçısı bir daha bəyan etdi: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Postsovet məkanında mövcud olan digər münaqişələrdən fərqli olaraq, BMT Təhlükəsizlik Şurası bu münaqişə ilə bağlı dörd qətnamə qəbul edib. O qətnamələr bəllidir, bütün dünya bunu bilir, erməni işğalçı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bax, budur əsas prinsip və bu prinsipdən kənarda heç bir başqa məsələ müzakirə oluna bilməz".

Dağlıq Qarabağda keçirilən qondarma "referendum"a toxunan ölkə rəhbəri vurğuladı ki, onun keçirilməsi ilə Ermənistan özünü bir daha biabır və ifşa etdi. "Onlar orada nə qədər çox qanunsuz "referendum" keçirsələr, bu, bir o qədər çox bizim xeyrimizə işləyir. Çünki bütün qonşu ölkələrimiz, Minsk Qrupuna həmsədrlik edən ölkələr, Avropa İttifaqı və bir çox ölkələr dərhal bu "referendum"u pislədilər. Bəyan etdilər ki, bu "referendum"u tanımırlar və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir".

Birinci rübdə daha bir önəmli hadisənin də baş verdiyini, təmas xəttinə yaxın ərazidə yerləşən Cocuq Mərcanlı kəndinin bərpasına başlandığını diqqətə çatdıran ölkə rəhbəri dedi: "Cocuq Mərcanlının bərpası tarixi hadisədir, bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayacaq. Eyni zamanda, onu göstərir ki, Azərbaycan öz ərazilərini bərpa edəndən sonra bütün kəndləri, bütün şəhərləri yenidən quracaq. Bu, bir daha onu göstərir ki, 20 ildən artıq başqa yerdə məskunlaşan Cocuq Mərcanlı kəndinin sakinləri öz doğma kəndinə tezliklə qayıtmaq arzusu ilə yaşayırlar. Baxmayaraq ki, orada bütün evlər dağıdılıb, ora təmas xəttinə yaxındır. Bax, budur, torpaq sevgisi, Vətən sevgisi. Ona görə həm dövlət, həm bizim siyasətimiz, eyni zamanda, xalq bu məsələdə vəhdət təşkil edir. Bu vəhdət, bu birlik bizi daha da ruhlandırır və göstərir ki, biz haqq yolundayıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik".

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın və Türkiyənin Hərbi Dəniz Qüvvələri arasında əməkdaşlıq məsələləri müzakirə olunub

*Aprelin 12-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı donanma admiralı Bülent Bostanoğlu ilə görüşüb.*



Admiral B.Bostanoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə güllər düzülüb.

Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl"in və 1918-ci ildə şəhid olmuş türk əsgərlərinin şərəfinə ucaldılmış abidənin önünə əklil qoyublar.

Sonra Müdafiə Nazirliyində nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirib. Nazir bu əlaqələrin daim inkişaf etdiyini və hər iki tərəf üçün qarşılıqlı faydalı olduğunu vurğulayıb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində münasibətlərin genişləndirilməsi imkanları və perspektiv istiqamətləri müzakirə olunub. Tərəflər döyüş hazırlığı, birgə təlimlərin keçirilməsi, təcrübə mübadiləsi məqsədilə ekspert qrupları və hərbi mütəxəssislərin qarşılıqlı səfərləri, eləcə də Hərbi Dəniz Qüvvələri arasında əlaqələrin inkişafının vacibliyini xüsusi qeyd ediblər.

Ölkəmizə səfərdən məmnunluğunu bildirən qonaq Azərbaycan-Türkiyə münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin, qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**foto**
**Natiq İSAYEVİNDİR**

# Bişkekdə MDB hava hücumundan müdafiə məsələləri üzrə Əlaqələndirmə Komitəsinin iclası keçirilib

Bişkekdə Müstəqil Dövlətlər Birliyi müdafiə nazirlikləri yanında hava hücumundan müdafiə məsələləri üzrə Əlaqələndirmə Komitəsinin 46-cı iclası keçirilib.

İclasda MDB hərbi-hava qüvvələrinin, həmçinin müdafiə sənayesi kompleksinin nümayəndələri iştirak ediblər.

İclası açan Qırğızıstan Silahlı Qüvvələri Baş Qərargahının rəisi Raimberdi Duyşenbiev deyib ki, belə görüşlər həm MDB çərçivəsində, həm də ikitərəfli əsasda əlaqələrin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparmaq imkanı yaradır.

Yığıncaqda MDB dövlətləri hava hücumundan müdafiə məsələləri üzrə Əlaqələndirmə Komitəsinin fəaliyyəti, bu sistemin hərbi hazırlığı ilə bağlı Birgə Tədbirlər, həmçinin 2018-ci ildə birgə kompüter komanda-qərargah təlimlərinin keçirilməsi ilə bağlı sənədlər imzalanıb.

İclas iştirakçıları Bişkekdəki Qələbə meydanındakı "Əbədi məşəl" memorial kompleksinin önünə əklillər qoyublar.

**AZƏRTAC**

# Azərbaycanın Milli Qəhrəmanı şəhid Murad Mirzəyevin anım mərasimi keçirilib



*Müdafiə Nazirliyinin və Yasamal rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı, şəhid polkovnik-leytenant Murad Mirzəyevin anım mərasimi keçirilib.*

AZƏRTAC xəbər verir ki, Yeni Yasamal qəsəbəsində qəhrəmanın yaşadığı binanın qarşısında təşkil olunan xatirə mitinqini Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani açaraq, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, respublikanın bütün bölgələrində ordumuzun aprel döyüşlərindəki qələbələrinin ildönümü ilə əlaqədar silsilə tədbirlərin keçirildiyini, Azərbaycan əsgərinin əks-hücum əməliyyatlarında göstərdiyi qəhrəmanlığın geniş təbliğ olunduğunu, şəhidlərin xatirəsinin dərin hörmət və ehtiramla yad edildiyini bildirib.

Qeyd edilib ki, ölkəmizin ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" (ölümündən sonra) adına layiq görülmüş Murad Mirzəyev aprel döyüşlərində xalqımızın qəhrəmanlıq tarixinə parlaq səhifələr yazan mətin döyüşçülərimizdəndir. O, 1976-cı ilin baharında Sabirabad rayonunun Muğangəncəli kəndində doğulub, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunu olub. Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları Məktəbində təhsil alıb və qardaş ölkədə bir çox təlimlərdə və kurslarda iştirak edərək həmişə ümidləri doğruldub. Azərbaycan Ordusunda motoatıcı taqım komandiri vəzifəsindən hərbi hissə komandiri vəzifəsinədək yüksələn M.Mirzəyev ABŞ, Türkiyə, Rumıniya, İordaniya və digər ölkələrdə xüsusi kurslar keçib, dəfələrlə döyüş medalları ilə təltif olunub. 2016-cı ilin aprelində Goranboy rayonu istiqamətində erməni təxribatlarına qarşı aparılan əks-həmlə əməliyyatlarında komandiri olduğu qrupla birlikdə şücaət və igidlik göstərib, düşməni hərbi texnika və canlı qüvvə sarıdan xeyli təlafata uğradıb, son damla qanınadək vuruşaraq qəhrəmancasına həlak olub.

Yasamal rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev aprel döyüşləri zamanı bütün xalqımız kimi, Yasamal rayon sakinlərinin də ordumuza dəstək nümayiş etdirdiyini, Ali Baş Komandanın əmrlərinə hazır olduğunu nəzərə çatdırıb. O, həmin döyüşlərdə Yasamal rayonundan çağırılmış dörd nəfərin şəhid olduğunu və onların böyük izdihamın iştirakı ilə son mənzilə yola salındığını söyləyib, şəhid ailələrinin diqqət və qayğı ilə əhatə olunduğunu vurğulayıb.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək bildirib ki, aprel döyüşləri zamanı Azərbaycan Ordusu düşmənə layiqli dərs verdi və Ermənistanın öz ordusu haqqında yaratdığı mifi darmadağın etdi. Əgər Ermənistan silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, bu əməliyyatlar təkrarlana bilər. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün güclü ordusu var və bu ordu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.



Milli Məclisin deputatı Qənirə Paşayeva, Sabirabad rayon İcra Hakimiyyəti başçısının birinci müavini Həsən Həsənov və digər çıxış edənlər Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hər bir əmrinə daim hazır olduqlarını bildiriblər.

Qəhrəmanın yaşadığı binanın qarşısına vurulmuş xatirə lövhəsinin üzərindən bəyaz örtük götürülüb, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət himni ifa olunub.

Şəhidin atası Telman Mirzəyev oğlunun şəhidliyindən ötən bir il ərzində qəhrəmanın ailəsinin ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunduğunu qeyd edərək Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlığını bildirib.

"Aprel zəfəri" marşının sədaları altında mitinq iştirakçıları Şəhidlər xiyabanına gedərək qəhrəman zabitin məzarını ziyarət edib, önünə Müdafiə Nazirliyi, Yasamal rayon İcra Hakimiyyəti və xidmət etdiyi hərbi hissənin şəxsi heyəti adından əklillər qoyublar.

Milli Qəhrəmanın anım mərasimində Müdafiə Nazirliyinin, Yasamal və Sabirabad rayon icra hakimiyyətlərinin rəhbərliyi, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Azərbaycan ilə Bolqarıstan arasında hərbi təhsil sahəsində əməkdaşlıq uğurla inkişaf edir

*Bolqarıstan Respublikasının G.S.Rakovski adına Hərbi Akademiyasının rəhbər heyəti ölkəmizə səfərə gəlib.*



Silahlı Qüvvələrin Hərbi Akademiyasında keçirilən görüşdə iki ölkənin hərbi elm və təhsil sahəsində əlaqələri, o cümlədən akademiyalar arasında əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev təhsil müəssisəsinin fəaliyyəti, strukturu, beynəlxalq əlaqələri və maddi-texniki bazası haqqında qonaqlara ətraflı məlumat verib.

Təhsil ocaqları arasında inkişaf edən münasibətlərin əhəmiyyətindən danışan G.S.Rakovski adına Hərbi Akademiyanın rəisi general-mayor Qrudi Angelov Azərbaycanın hərbi elm və təhsilinin bütün istiqamətləri üzrə əlaqələrin uğurla inkişaf etdiyini xüsusi qeyd edib.



Sonda hərbi akademiyalar arasında elmi tədqiqatlar, təcrübə mübadiləsi, müştərək tədbirlərin keçirilməsi, tədris və qarşılıqlı maraq doğuran digər məsələlərə dair əməkdaşlıq sənədi imzalanıb.

Sonra qonaqlar Azərbaycan hərbi təhsil sisteminin inkişafı ilə yaxından tanış olmaq üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini də ziyarət ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Türkiyənin nümayəndə heyəti Azərbaycanın Hərbi Dəniz Qüvvələrində və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olub

Ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı donanma admiralı Bülent Bostanoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 12-də Azərbaycan Respublikasının Hərbi Dəniz Qüvvələri Komandanlığında olub.

Hərbi Dəniz Qüvvələri komandanı vəzifəsini icra edən 1-ci dərəcəli kapitan Zaur Hümmətov ilə admiral Bülent Bostanoğlu arasında keçirilən görüşdə ölkələrimizin hərbi dəniz qüvvələri arasında əməkdaşlıq məsələləri müzakirə edilib və qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb.

Sonda Türkiyə nümayəndə heyətinə Azərbaycanın Hərbi Dəniz Qüvvələri haqqında brifinq təqdim edilib.

* * *

Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı donanma admiralı Bülent Bostanoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini ziyarət edib.

Ziyarət zamanı ali hərbi məktəbin komandanlığı ilə görüş keçirilib. Görüşdə məktəbin yaranma tarixi, təlim-tədris prosesi və fəaliyyətlərinə dair ətraflı brifinq təqdim edilib.

Nümayəndə heyəti ali hərbi təhsil müəssisəsinin hərbi dəniz fakültəsindəki tədris vəsaiti, maddi-texniki vasitələr və digər hərbi təyinatlı avadanlıqla da yaxından tanış olub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Milli Qəhrəmanın xatirəsinə abidə-bulaq kompleksi açılıb

*Qazaxda Azərbaycanın Milli Qəhrəmanı Firuddin Şamoyevin xatirəsinə tikilmiş abidə-bulaq kompleksinin açılışı olub.*

AZƏRTAC xəbər verir ki, mərasimdə rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək respublikamızda, eləcə də Qazax rayonunda şəhidlərə göstərilən hörmət və ehtiramdan danışıb. Qeyd edib ki, cəbhə bölgəsində yerləşən Qazax rayonu torpaqlarımız uğrunda gedən döyüşlərdə 292 şəhid verib. Onlardan 5 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Bundan əvvəl də şəhidlərə hörmət əlaməti olaraq onların xatirəsinə bulaq-abidə kompleksləri inşa edilib. Ümumiyyətlə, Qazax şəhərində şəhidlərin xatirəsinə 7 bulaq-abidə kompleksi tikilib.

Sonra rayon ağsaqqalı Xanqulu Süleymanov, Azərbaycan Yazıçılar Birliyinin Qazax zona filialının sədri, Əməkdar İncəsənət xadimi, şair Barat Vüsal, şair Cavanşir Rüstəm, qəhrəmanın adını daşıyan şəhər 4 nömrəli tam orta məktəbin direktoru Məhəmməd Aşırov və başqaları çıxış edərək şəhidin keçdiyi döyüş yolundan danışıblar.

Milli Qəhrəmanın həyat yoldaşı Həmayıl Şamoyeva onlara göstərilən diqqət və qayğıya görə ailə üzvləri adından minnətdarlığını bildirib.

Tədbirdə məktəblilər və Firuddin Şamoyevin nəvələri qəhrəmana həsr olunmuş şeirlər söyləyiblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**14 aprel 2017-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və 82 millimetrlik minaatanlardan (5 mərmi) da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 118 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Kəmərli, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari, Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu və Əlibəyli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Mərzili, Şıxlar, Sarıcalı, Baş Qərvənd, Cəvahirli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Horadiz, Aşağı Seyidəhmədli, kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Russia Today": Azərbaycan Ordusu regionda ən varlı ordudur



*"Russia Today" telekanalının saytında "Azərbaycan Ordusu regionda ən varlı ordudur" fotosessiyası təqdim edilib.*

Rusiya telekanalının qeyd etdiyi kimi, Azərbaycan Ermənistan ilə Dağlıq Qarabağ ətrafında həll edilməmiş münaqişə üzündən daim hərbi hazırlıq vəziyyətindədir. Azərbaycan 2000-ci illərin əvvəllərindən hərbi büdcəsini 20 dəfə artırıb. Bakı Rusiya, İsrail və Türkiyə istehsalı olan silahlar satın alır.

Azərbaycanın Hava Hücumundan Müdafiə Qoşunları əsasən Sovet texnikasından ibarətdir: Rusiya istehsalı olan "S-300", "S-200", "S-125", "Buk", "Top-M2E". Amma kiçik mənzilli zenit-raket kompleksləri İsraildən alınmış nümunələrdir.

Azərbaycan aviasiyası öz qüdrətinə görə Ermənistan Hərbi Hava Qüvvələrindən xeyli üstündür. Respublikanın Müdafiə Nazirliyi Qazaxıstandan və Ukraynadan işlənmiş "MiQ-25" tutucu və "MiQ-29" qırıcı təyyarələri alıb. Gürcüstan və Belarusdan 18 vahid "Su-25" hücumçu təyyarəsi alınıb.

"Global Firepower" hərbi qüdrət reytinqində Azərbaycan 34 mövqe üzrə Ermənistanı qabaqlayaraq, 60-cı yeri tutur. Ötən 15 ildə Azərbaycan Ordusu böyük sıçrayış edib. 2003-cü ildə ölkənin müdafiə xərcləri 160 milyon dollar, 2013-cü ildə isə 3,7 milyard dollar təşkil edib.

Azərbaycan Ordusunun balansında 314 tank, 1600 vahid zirehli texnika, 119 özüyeriyən artilleriya qurğusu, 240 yedəyə qoşulan artilleriya silahı, 191 yaylım atəşi sistemi var.

Azərbaycan Ordusunun sayı ehtiyatda 300 min nəfər olmaqla, 70 min nəfər təşkil edir. Müdafiə siyasətində quru qoşunları komponentinə üstünlük verilib. Quru qoşunlarının strukturuna hər biri 3-6 briqadadan ibarət 5 ordu korpusu daxildir.

Azərbaycan qovunlarının əsas döyüş tankı "T-72"-dir. Sovet zirehli texnikası və zərbə silahları parkını getdikcə müasir silahlar əvəzləyir. Azərbaycan öz nümunələrini yaratmağa çalışır, amma onun əsas silah təchizatçısı Rusiya qalır.

**AZƏRTAC**

Ön xətdən reportaj

# "Düşmən unutmasın ki, Azərbaycan əsgəri ona layiqli cavab verməyə qadirdir"

*...Ön xətdə yerləşən hərbi hissələrdən birindəyəm. Bu hərbi hissənin şəxsi heyəti də aprel döyüşlərində öz şücaətini göstərib, düşmənin layiqli cavabını verib və bir çox mühüm əhəmiyyətli yüksəklikləri işğaldan azad edib.*



Təcrübəli zabit Eldəniz İsmayılovla görüşüb söhbət edirik. O, düşmənin atəşkəsi hər gün pozmasından, postlarda əsgərlərimizin ayıq-sayıqlığından, qarşı tərəfin layiqli cavab atəşi ilə susdurulmasından danışır.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən "Azərbaycan Bayrağı" ordeni və "İgidliyə görə" medalı ilə təltif olunmuş zabit Vüsal Ələsgərovla tanış oluruq. Uzun illərdir orduda xidmət edən zabit çətin, lakin şərəfli döyüş yolu keçib. Tabeliyindəki hərbi qulluqçuların qayğısına qalan, onların problemini öz problemi bilib həll edən zabit qısa müddətdir bu hərbi hissəyə təyin edilib, ancaq hamının rəğbətini qazanıb.

Mayor Niyazi Şükürovun müşayiəti ilə yola çıxırıq. İstənilən hava şəraitində Vətənin keşiyində dayanan, fasiləsiz olaraq düşməni müşahidə edən əsgərlərimizin görüşünə tələsirik. Yolumuz barlı-bərəkətli kəndlərdən keçir. Ətrafdakı ağacların çiçəklənməsi yazın gəlişindən xəbər verir. Baharın gəlişi, füsunkar gözəllik göz qamaşdırır. Hər yanda adamlar əminliklə, arxayınlıqla təsərrüfat işləri ilə məşğuldurlar. İnsanlar baharın gəlişini gözləyir, havanın isinməsiylə, ağacların yarpaqlaması, ətrafın yaşıllığa, gül-çiçəyə bürünməsi onlara könül xoşluğu verir. Günəş öz şəfəqləri ilə təbiəti canlandırdığı kimi, insanların duyğularını da yenidən oyadır, canlandırır. Aprel döyüşlərində ermənilər bu istiqamətdə də dinc əhaliyə ağır artilleriya silahlarından atəş açıblar. Azərbaycan əsgərinin gücünə inanan əhali ev-eşiyini tərk etməyib.

Narın-narın yağış yağır. Zabit Niyazi Şükürov burada hava şəraitinin tez-tez dəyişdiyini, lakin əsgərlərimizin xidmətinə heç bir mane törətmədiyini vurğulayır. Zabit bir ilə yaxındır bu hərbi hissədə xidmət edir. Ön xətdə xidmət etməkdən qürur duyduğunu deyir. Zabit onu da vurğulayır ki, aprel döyüşlərində şəhid olan kapitan Vaqif Bayramovun yerinə təyin olunub. "Bir vaxtlar burada xidmət edən, lakin aprel döyüşlərində şəhid olan zabitimizin yerinə təyin olunmuşam. Onun əvvəllər ayaq qoyduğu, gəzdiyi bu cığırlarda xidmət etməyimə çox sevinirəm".

Zabitlə söhbət edə-edə döyüş postuna çatırıq. Uzaqdan düşmən işğalından azad edilən, hal-hazırda ordumuzun tam nəzarəti altında olan yüksəkliklər görünür. Dayaq məntəqəsinə çatırıq. Son bir gündə bölük komandiri heç bir fövqəladə hadisənin baş vermədiyini bildirir.

Səngərdə Xızı rayonundan hərbi xidmətə çağırılan əsgər Nadir Bayramovla tanış oluruq. 6 aya yaxındır pulemyotçu vəzifəsindədir. Ata-baba ocağından zorla didərgin salınmış yurddaşlarının taleyi onu da bir vətəndaş kimi daim narahat edir. Buna görə də cəbhə bölgəsində xidmət etmək üməyincədir. Ali təhsilli əsgərin ən böyük arzusu məktəbi bitirən kimi ön xətdə ən vacib borcunu - Vətənə övlad haqqını yerinə yetirmək olub. "Burada xidmət çətin olduğu qədər də şərəflidir. Aprel döyüşlərində iştirak etməsəm də, əsgər yoldaşlarımın danışdıqlarından hiss olunur ki, ordumuz öz gücünü düşmənə sübut edib. Qoy hamı bilsin ki, Vətən torpağı etibarlı əllərdədir".

Əsgər Anar Əhmədov isə Yasamal rayonundan hərbi xidmətə çağırılıb. Tərxis olmağına az bir vaxt qalan əsgərimiz aprel döyüşlərində fəal iştirak edib. Anarın sözlərinə görə, düşmən üzərində qazandıqları qələbə onun yaddaşında böyük iz qoyub. "Mən aprel döyüşlərində 6 ayın əsgəri idim. Fəxr edirəm ki, torpaqlarımızın bir qisminin azad olunmasında az da olsa zəhmətim, rolum olub. Ordumuz güclü olduğunu bir daha isbat etdi. Xidmətdən tərxis olunduqdan sonra mülki həyatda bu qələbəmizdən dostlarıma, tanışlarıma qürurla danışacam. Qüdrətli Azərbaycan Ordusunun əsgəri olduğum üçün qürur duyuram".

- Qarabağımızın düşmən tapdağında olması bizə rahatlıq vermir və verməməlidir. Torpaqlarımız tam azad olmayınca, şəhidlərimizin qisası alınmayınca, biz düşmənə rahatlıq tapmağa imkan verməyəcəyik, - deyə əsgər İbrahim Atasov söhbətə qoşuldu. - Bu gün düşmənlə üzbəüz mövqedə Vətənin keşiyində dayanmağımdan qürurverici heç nə ola bilməz. Qoy düşmən unutmasın ki, bu gün əsl döyüşçü kimi formalaşan Azərbaycan əsgəri ona hər an layiqli cavab verməyə qadirdir."

Əsgərlərlə söhbətimizə fasilə verib mövqelərimizi nəzərdən keçiririk. Tarixən bizə məxsus olan torpaqlarımıza ürək ağrısı ilə baxmamaq mümkün deyil. Taqım komandirinin müavini gizir Şəhriyar Tağıyev hər dəfə qarşı tərəfi müşahidə edərkən tək bir amal haqqında düşündüyünü bildirir. Bir gün Qarabağı azad görmək ən böyük arzusudur. "Hamımız dərk edirik ki, vahid düşmənimiz və işğalda olan torpaqlarımız var. Tezliklə Ali Baş Komandanımızın əmri ilə işğal altında olan torpaqlarımızı azad edib, Şuşanı, Laçını, Kəlbəcəri... qarış-qarış gəzək. Bu arzularımızı həyata keçirməyə, üçrəngli bayrağımızı Azərbaycanın hər bölgəsində dalğalandırmağa tam hazırıq".

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Bir anadır, bir Vətən!"



*Aprelin 11-də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə "N" hərbi hissəsində aprel döyüşlərinin birinci ildönümünə həsr olunmuş "Bir anadır, bir Vətən!" devizi altında ədəbi-bədii musiqili kompozisiya təşkil olunub. Tədbirdə sözügedən qurumun yaradıcı kollektivi və "N" hərbi hissəsinin şəxsi heyəti iştirak edib.*

Hərbi vətənpərvərlik tədbirində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan igid oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2 aprel 2016-cı il tarixində ölkənin Təhlükəsizlik Şurasının iclasındakı çıxışından bir hissə ekranda nümayiş olundu:

"Bizim heç bir günahımız yoxdur. Biz sadəcə olaraq bu təxribata cavab vermişik. Düz də etmişik. Bizə qarşı yenə təxribat törədilərsə, onlar yenə də öz cəzalarını alacaqlar. Bu, bir. İkincisi, biz öz torpağımızda vuruşuruq. Biz Ermənistan torpağını işğal etməmişik. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm.

Əminəm ki, bundan sonra da düşmənin bütün təxribatları cavabsız qalmayacaq. Düşmənə bundan sonra da layiqli cavab veriləcək. Azərbaycan Ordusu buna qadirdir. Azərbaycan övladları öz doğma torpağını müdafiə edirlər, Vətən uğrunda vuruşurlar, şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaq".

Sonra çıxış edən polkovnik Mehman Kərimov aprel döyüşlərindən söhbət açdı. Ermənistanın uzun illərdir öz ordusu haqqında yaratdığı mifləri, əfsanələri bir il qabaq darmadağın edən ordumuzun, bölgədə ən güclü ordu olduğunu vurğuladı. "Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Aprel döyüşlərində hərbçilərimiz qəhrəmanlıq göstərdilər. Şəhid hərbçilərimizin xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır. Bu gün biz vahid amal ətrafında birləşib ölkəmizi daha da gücləndirməliyik, müstəqilliyimizi daha da möhkəmləndirməliyik, ordumuzun gücünü daha da artırmalıyıq ki, öz ərazi bütövlüyümüzü tezliklə bərpa edək ".



Sonra tədbir Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin musiqili kompozisiyaları ilə davam etdi. Gizirlər Vüsal Ağayev, Leyla Qəhrəmanova, Ağabala Abdullayev "Lələtəpə fatehləri", "Bayraqtəpə qartalları" və digər hərbi vətənpərvərlik mahnılarını ifa etdilər. Atası 1992-ci ildə Qarabağ döyüşlərində şəhid olan Fərman Əsgərovun repertuarında isə "Qarabağ" mahnısı yer aldı.

Sonda hərbi vətənpərvərlik tədbiri bütün zabit, gizir və əsgər kollektivinin bir ağızdan "Şəhid varsa, torpaq da var, Vətən də, şəhidlərə ölüm yoxdur Vətəndə!" devizini səsləndirməsi ilə başa çatıb.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# “Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır”

## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Respublika Veteranları Təşkilatında qeyd edilib

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə aprelin 12-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında anım mərasimi keçirilib.*



AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə kinorejissor Vaqif Mustafayevin ulu öndər Heydər Əliyev haqqında çəkdiyi sonuncu televiziya filmi nümayiş etdirilib.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək ümummilli lider Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli fəaliyyəti barədə geniş məlumat verib. "Ulu öndər Heydər Əliyev zamanın fövqündə duran, illər keçdikcə dühası və əzəməti daha parlaq şəkildə üzə çıxan qüdrətli şəxsiyyətlərdəndir", - deyən C.Xəlilov vurğulayıb ki, Ümummilli Lideri xalqın, dövlətin tarixində əbədi yaşadan ən mühüm cəhətlərdən biri onun Azərbaycanın ən çətin zamanlarında xalqı və dövləti düşdüyü bəladan qurtarması, onu yeni inkişaf mərhələsinə çıxarmasıdır. Tarixi yaradan, onun gedişini dəyişməyə qadir insan kimi Heydər Əliyevin adı dünyanın ən böyük dövlət adamları olan Bismark, Atatürk, Adenaur və digər tarixi şəxsiyyətlərlə bir sırada çəkilir.

Azərbaycanın müstəqilliyinin əvvəllərində üzləşdiyi dərin ictimai-siyasi, sosial-iqtisadi problemlərə, cəbhədəki uğursuzluqlara, hakimiyyət böhranına, vətəndaş müharibəsi təhlükəsinə toxunan C.Xəlilov bildirib ki, belə ağır vəziyyətdə xalqın imdadına məhz ulu öndər Heydər Əliyev yetişdi. Dahi rəhbər xalqın təkidli dəvətini qəbul edib 1993-cü il iyunun 9-da Bakıya gəldi, daxili və xarici düşmənlərimizin bütün planları puça çıxdı. Xilaskarlıq missiyasını üzərinə götürən Ulu Öndər vətəndaş qarşıdurmasının qarşısını aldı, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bundan sonra Azərbaycan gələcəyə inamla baxan qüdrətli dövlətə çevrilmək yoluna qədəm qoydu.

Məruzəçi daha sonra Azərbaycanın bu gün siyasi və iqtisadi sahədə qazandığı böyük uğurlardan, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə regionun lider dövlətinə çevrilməsindən, dünyanın sürətlə inkişaf edən ölkələri sırasına çıxmasından danışıb.



Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev vurğulayıb ki, Azərbaycan xalqı zəngin tarixi ərzində bir sıra görkəmli şəxsiyyətlər yetişdirib. Həmin şəxsiyyətlərin arasında ümummilli lider Heydər Əliyevin özünəməxsus yeri var. Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının tarixində silinməz izlər qoyub. Dahi rəhbərin həyatını, fəaliyyətini və quruculuq konsepsiyasını səciyyələndirən "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" fəlsəfi yanaşması idi. Ümummilli Lider həmişə deyirdi ki, dövlət xalqın mənafeyinə xidmət etməlidir, xalqın mənafeyi hər şeydən üstün olmalıdır. Heydər Əliyev xalqının Ümummilli Lideri səviyyəsinə yüksələnə qədər yüksək vəzifələrdə çalışıb, Sovet dövründə Azərbaycana rəhbərlik edib, SSRİ-nin əsas rəhbərlərindən biri olub. Daha sonra müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində ölkəmizin dinamik inkişafına, xalqın rifahına xidmət edib, bunun üçün çalışıb.

Sonra Bakı şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, "İnterfaks-Azərbaycan" agentliyinin baş direktoru Aleksandr İvanov və başqaları çıxış edərək müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında, inkişafında və dünyaya tanıdılmasında ümummilli lider Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən bəhs edib, Ulu Öndərlə bağlı xatirələrini bölüşüblər.

## Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb

*NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərmək üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 54 hərbi qulluqçusu plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 hərbi qulluqçusu, 2 hərbi həkimi və mühəndis-istehkam ixtisası üzrə 2 zabiti Əfqanıstandakı missiyada iştirak edir.

## Genişmiqyaslı təlimlər keçiriləcək

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, aprelin 16-dan qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədilə döyüş şəraitinə uyğunlaşdırılmış vəziyyətdə genişmiqyaslı təlimlər keçiriləcək.*

Təlimlərə 30 min nəfərədək şəxsi heyət, 250-dən artıq tank və zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 25 ədəd müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunacaq.

Təlimlər zamanı çətin relyef şəraitində müasir ümumqoşun döyüşü və əməliyyatların keçirilməsinin müxtəlif üsulları məşq etdiriləcək.

Qəbul edilmiş qərara əsasən, qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, səfərbərlik ehtiyatlarının toplanılaraq təyinatı üzrə göndərilməsi, zərbə qruplaşmalarının yaradılması və müəyyən olunmuş istiqamətlərdə tətbiqi, döyüş aviasiyasının ehtiyat aerodromlarına köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması icra olunacaq.

Təlimlər aprelin 21-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Ovqat*

## Siz də əsgər olacaqsınız

*Hər fəslin öz gözəlliyi var. Yazı gul-çiçəyinə, yaşıllığına görə sevirik, yayı unutmadığımız doğma Xəzəri yada saldığına görə, payızı qızılı rənginə, qışı qarına görə sevirik. Biz də bilirik ki, Vətəndə bütün fəsillər gözəldi. Vətən ona görə Vətəndi ki, hər gününü, ayı, ili ömrünə yazmaq istəyirsən və yazırsan.*

Ötən ilin apreli hamımızın ömrünə və tarixə yazıldı. O ovqatı indi də yaşayırıq. Azərbaycan Ordusunun gücünə bir daha inandıq. Bir daha inandıq ki, bu ordu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Ona da inandıq ki, Murad Mirzəyev, Samid İmanov kimi zabitlərimiz, belə zabitlərin tabeliyində xidmət edən əsgərlərimiz olub, var, olacaq da.

Ötən aylar bizi aprel döyüşlərinin ovqatından uzaqlaşdırmır, əksinə, bu ovqat bizi böyük qələbəyə ruhlandırır, daha əhatəli qələbə ovqatına kökləyir. Biz ordumuzun döyüş hazırlığına, əsgər və zabitlərimizin vətənpərvərliyinə, mənəvi hazırlığına inanırıq, güvənirik. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" fikrini biz gənclər də qürurla deyirik...

Tələbə yoldaşlarımla söhbətlərimizdə aprel döyüşlərindən, bu döyüşlərin nəticələrindən də danışırıq. Xalqla ordunun birliyindən danışırıq, əsgərlərimizin döyüş hazırlığından danışırıq, Ali Baş Komandanın, Müdafiə nazirinin döyüş bölgələrinə səfərlərindən danışırıq, bu səfərlərin şəxsi heyətin mənəvi-psixoloji hazırlığına təsirindən danışırıq. Hər dəfə oğlanların universiteti tez bitirmək istəyini aydınlığı ilə hiss edirik. Onlar sanki zamanın ləng ötüşməsindən narahatdırlar - hərbi xidmətə getmək istəyirlər. Onların bu düşüncələri həsəd aparılası Vətən sevgisidi. Bu məqamda Rəsul Rzanın Böyük Vətən müharibəsi illərində azərbaycanlı döyüşçülərə yazdığı şeirini, şeirin son beytini xatırlayıram:

*Vuruş ki, bu gün, sabah*
*qalib gələndə yurdun,*
*Hamı bilsin ki, sən də*
*Vətəni qoruyurdun!..*

Siz də Vətəni qoruyacaqsınız, tələbə yoldaşlarım! Siz hərbi xidmətə gedincə, böyük qələbə qazanacağınızı arzulayırıq. Siz işğaldan azad edilmiş torpaqlarımızda xidmət edəcəksiniz!..

**Şəbnəm BEHBUDZADƏ**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** 1941-1945-ci illərdə alman faşizminə qarşı aparılan mübarizəbə Azərbaycan xalqının rolu.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən II Dünya müharibəsi haqqında tarixi materiallardan, həmin hadisələrin şahidi olanların xatirələrindən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**

**1. Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması.**

**2. Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları.**

**3. Azərbaycan II Dünya müharibəsi illərində.**

### *Almaniyanın SSRİ üzərinə qəflətən hücumu və müharibənin başlanması*

9 May - faşizm üzərində qələbə günüdür. Ümummilli liderimiz Heydər Əliyev bu qələbəni belə qiymətləndirmişdir: "Zaman keçdikcə, illər ötdükcə, bu qələbənin mənası, mahiyyət və tarixi əhəmiyyəti daha da aydın olur, bütün dünya üçün daha da açılır".

1933-cü ildə Almaniyada, Adolf Hitler başda olmaqla, faşistlər hakimiyyətə gəldilər. Həmin dövrdən öz hərbi qüdrətini artıraraq Avropanın işğalına hazırlaşan Almaniya 1939-cu il sentyabrın 1-də Polşaya hücum etdi. Beləliklə, II Dünya müharibəsi başlandı. Qısa müddət ərzində Avropanın əksər dövlətlərini işğal edən və ya öz təsiri altına alan Almaniya keçmiş SSRİ-yə (Azərbaycan Respublikası o vaxtlar Sovet İttifaqının tərkibində idi) hücum ərəfəsində böyük hərbi potensiala malik idi.

Almaniya 1941-ci il iyunun 22-də qəflətən SSRİ üzərinə hücum etdi. 190 alman diviziyası SSRİ-nin bütünlükdə qərb sərhədləri boyunca hərəkətə gəldi. SSRİ-də yaşayan bütün xalqların, o cümlədən Azərbaycan xalqının həyatında ağır iz buraxmış Böyük Vətən müharibəsi başlandı.

Müharibənin ilk 3 günündə Azərbaycandan 25.984 nəfər könüllü cəbhəyə yola düşdü. Artıq 4 iyul 1941-ci il tarixdə Bakı şəhərində 75 min, Naxçıvan Muxtar Respublikasında 7 min, Gəncədə 10 min azərbaycanlı ordu sıralarına yazılmışdı. Bütövlükdə Azərbaycan üzrə 1941-ci ildə 186,7 min nəfər belə dəstələrə qoşulmuşdu. 1943-cü il yanvarın 1-dək Azərbaycandan döyüşən hərbi hissələrə göndərilənlərin sayı 464.468 nəfər olmuşdu. Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan müharibəyə 600 mindən çox insan getmiş, onların yarıdan çoxu cəbhədə həlak olmuşdu. Respublikada 87 atıcı taboru və 1124 ərazi özünümüdafiə dəstəsi yaradılmışdı. On minlərlə fəhlə, kəndli və ziyalı Azərbaycanda formalaşdırılmış diviziyalara səfərbər edilmişdi.

Qısa müddət ərzində döyüşən hissələr üçün respublikada 15 min tibb bacısı, 750 rabitəçi, 3 min sürücü hazırlanıb cəbhəyə göndərilmişdi.

Azərbaycan döyüşçüləri Sovet ordusu sıralarında qəhrəmancasına vuruşurdular. 77-ci, 223-cü, 396-cı, 402-ci və 416-cı milli atıcı diviziyaların tərkibində onlar Qafqaz dağlarında, Ukraynada, Pribaltikada və Şərqi Avropa ölkələrində vuruşaraq, faşizm üzərində qələbənin qazanılmasına öz layiqli töhfələrini vermişlər.

### *Azərbaycanlıların alman faşistlərinə qarşı döyüşlərdə qəhrəmanlıqları*

Azərbaycan xalqının qəhrəman oğulları Həzi Aslanov, Ziya Bünyadov, Məlik Məhərrəmov, Qafur Məmmədov, Hüseynbala Əliyev, İsrafil Məmmədov, Mehdi Hüseynzadə, Gəray Əsədov, Akim Abbasov və başqaları II Dünya müharibəsi illərində unudulmaz qəhrəmanlıqlar göstərmişlər. Onlar Moskva və Stalinqrad, Krım və Qafqaz, Kiyev və Smolensk ətrafında gedən döyüşlərdə vuruşaraq respublikamızın şərəfini qorumuşlar.

Hələ müharibənin ilk ilində Moskva ətrafında gedən döyüşlər zamanı fədakar Azərbaycan oğlu İsrafil Məmmədov Novqorod vilayətinin Nustinko kəndi yaxınlığında kiçik bir dəstə ilə hitlerçilərin bir taborunun hücumunun qarşısını almış, 300 nəfərdən artıq faşist əsgər və zabitini məhv etmişdi. Stalinqrad döyüşlərində Həzi Aslanovun tank alayı düşmənin 45 tankını, 26 topunu, 50 avtomobilini və eyni zamanda 2 min nəfərədək zabit və əsgərini məhv etmiş, 13 tankını və 175 avtomaşınını ələ keçirmiş, 700 nəfəri əsir götürmüşdü. 1942-ci ilin dekabr döyüşlərinə görə alayın 100-dən artıq döyüşçüsü orden və medallarla təltif olunmuşdur. Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Tank qoşunları general-mayoru Həzi Aslanov yeganə azərbaycanlıdır ki, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

1944-cü ildə gedən döyüşlər zamanı Gəray Əsədov xalqımızın adını bir daha yüksəltdi. O öz sinəsi ilə düşmən pulemyotunu susduraraq yoldaşlarının hücumunu təmin etmişdi.

Müharibənin ilk günlərindən Azərbaycanın şahinləri faşistlərə qarşı mərdliklə vuruşurdular. 13 iyul 1941-ci ildə Leninqrad səmasının keşiyində leytenant Hüseynbala Əliyev dörd faşist təyyarəsini vurduqdan sonra özü 17 yara alsa da, təyyarəsini yerə endirə bilmişdi. Təyyarəçi Yusif Quliyev özünü qorxmaz səma döyüşçüsü kimi göstərmiş, dörd faşist təyyarəsi ilə döyüşə girərək, ikisini məhv etmiş, qalan ikisi isə qaçmışdır.

Azərbaycanlı döyüşçülər Avropa ölkələrində antifaşist azadlıq hərəkatında da qəhrəmancasına vuruşurdular. Adriatik dənizi sahillərində "Mixaylo" ləqəbli qorxmaz, fədakar azərbaycanlı balası Mehdi Hüseynzadənin partizanlar arasında göstərdiyi qəhrəmanlıqların sorağı hər yerə yayılmışdı. Qəhrəmancasına həlak olmuş Mehdi Hüseynzadəyə müharibədən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

II Dünya müharibəsi illərində 123 nəfər Azərbaycan vətəndaşı göstərdikləri şəxsi igidliklərə və şücaətlərə görə Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, 34 nəfər isə "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdur.

Sovet İttifaqı Qəhrəmanlarından 43 nəfəri milliyyətcə azərbaycanlıdır. Onlardan biri olan Məlik Məlik oğlu Məhərrəmov 1943-cü ildə öz bölüyü ilə Dnepr çayını birinci keçərək qarşıya qoyulmuş döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Onun həyat yolu və cəbhə qəhrəmanlıqları haqqında Abdulla Qurbaninin "Fırtınalar qoynunda" sənədli povestində ətraflı məlumat verilmişdir.

1941-1945-ci illərdə bütün SSRİ-dən cəmi 44 tibb işçisi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür ki, onların da 2-si Azərbaycan xalqının nümayəndəsidir.

Müharibə illərində Azərbaycanın paytaxtı Bakı da düşmənin hava hücumlarına məruz qalmışdır. 1942-ci ildə alman təyyarələri Bakı səmasına 71 dəfə, 1943-cü ildə isə 3 dəfə hücum etmişlər. Bu hücumlar zamanı 96 düşmən təyyarəsi vurulmuşdur.

### *Azərbaycan II Dünya müharibəsi illərində*

Cəbhəni silah və sursatla, ərzaqla, geyimlə təmin etmək üçün müharibə illərində bütün Azərbaycan iqtisadiyyatı səfərbər olunmuşdu. Sovetlər Birliyinin əsas neft bazası olan Azərbaycan müharibənin əvvəllərində SSRİ-də istehsal olunan neftin 70 faizindən çoxunu verirdi. Müharibə illərində neftçilərimiz cəbhəyə 75 milyon tona qədər neft, 22 milyon ton benzin, digər neft məhsulları göndərmişlər. Cəbhəyə göndərilən yüksək oktanlı təyyarə benzininin 85-90 faizi Bakıda istehsal olunurdu.

Xalq təsərrüfatının yenidən qurulması, ordunun yüksək keyfiyyətli yanacaqla, hərbi sursatla, ərzaqla təmin olunması Azərbaycan xalqı qarşısında ciddi vəzifələr qoyurdu. Müharibə dövründə sənaye istehsalının profilini dəyişmək və qısa müddət ərzində yeni növ məhsulların buraxılması tələb olunurdu. Azərbaycan sənayesi silah, hərbi texnika, sursat istehsalına başlamalı idi. Dəmir yolu, dəniz və hava yollarının qrafiklə işləməsinin təşkili böyük əhəmiyyət kəsb edirdi.

Kənd təsərrüfatında yeni sahələrin əkilməsi, məhsuldarlığın yüksəldilməsi, döyüşən ordunun kənd təsərrüfatı məhsulları ilə təmin olunması vəzifələri qarşıda dururdu.

Səfərbərlik nəticəsində orduya çağırılmış yüksək ixtisaslı kadrların, ümumiyyətlə, işçi qüvvəsinin az olması qoyulan vəzifələrin yerinə yetirilməsini daha da çətinləşdirirdi. 1942-ci ilin fevral-mart aylarında neftayırma və kimya sənayesi üçün cəbhədən 5175 nəfər ixtisaslı fəhlə və mütəxəssis geriyə, respublikaya çağırılmışdı. Eyni zamanda müharibədə əlil olanlar istehsalata, öz köhnə iş yerlərinə qayıdırdılar. 1941-42-ci illərdə 6304 nəfər, ümumiyyətlə, müharibə dövründə isə 36000 nəfər döyüşlərdə əlil olduqdan sonra istehsalata qayıtmışdı. Respublika zəhmətkeşləri qələbə naminə gündəlik normativləri yerinə yetirmədən evlərinə getmirdilər.

1942-ci ilin ikinci yarısında Azərbaycanda, əsasən Bakıda 130 növ silah, sursat və hərbi texnika buraxılırdı. Bakı zavodlarında "Katyuşa" reaktiv artilleriya qurğusu yığılırdı. Yerli sənaye müəssisələri az bir vaxtda müdafiə sənayesi profilində işləməyə keçmişdi. Müharibənin ilk iki ilində yüngül sənaye işçiləri döyüşçülər üçün artıq 30 növ məhsul buraxmağa başlamışdı. Rostov şəhərindən köçürülmüş ayaqqabı fabrikinin bazasında Bakıda ayaqqabı fabriki tikilmiş və istehsal bərpa edilmişdi. Ət və süd sənayesi müəssisələri yenidən qurulmuşdu.

Azərbaycanda 70-dən çox hərbi hospital təşkil olunmuşdu və bu hospitallarda 441.017 nəfər yaralı müalicə olunmuşdu. Azərbaycan dəmiryolçuları müharibə illərində cəbhəyə 1 milyon 300 min vaqon və 600 min sistern, Xəzər dənizçiləri isə 20 milyon ton hərbi və xalq təsərrüfatı yükləri daşımışlar.

Böyük Vətən müharibəsi iştirakçılarına Azərbaycan dövləti tərəfindən həmişə böyük diqqət və qayğı göstərilir. Azərbaycan Respublikasından olan Böyük Vətən müharibəsi iştirakçılarının "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi" yubiley medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2 fevral 2015-ci il tarixli sərəncamı buna əyani sübutdur.

Böyük Vətən müharibəsi bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr olmuşdur. Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqların araşdırılması və təbliği bu gün də ciddi elmi-nəzəri, siyasi və əməli əhəmiyyətə malikdir.

Hazırkı dövrdə Azərbaycan xalqı yeni bir düşmənlə - Ermənistan Respublikasının işğalçılıq siyasəti ilə üzbəüzdür. Azərbaycan xalqı artıq dördüncü dəfədir ki, ermənilərin işğalçılıq siyasəti ilə üzləşir. 1905-1911, 1918-1924, 1948-1954, 1988-1994-cü illərdə Ermənistan ərazilərindən, öz tarixi dədə-baba yurdlarından qovulan azərbaycanlılar erməni daşnaklarının vəhşiliklərindən nicat yolunu Azərbaycan Respublikasında tapdılar.

XX əsrdə erməni daşnaklarının törətdikləri vəhşiliklər öz miqyasına və qəddarlığına görə heç də Böyük Vətən müharibəsində faşistlərin törətdikləri vəhşiliklərdən geri qalmır. Növbəti dəfə 1991-1994-cü illərdə Azərbaycan Respublikasının ərazi bütövlüyünə göz dikən Ermənistan havadarları ilə öz istəyinə qismən nail oldu, Azərbaycan Respublikasının Qarabağ Muxtar Vilayəti və ona bitişik 7 inzibati rayon işğal edildi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dünya miqyasında apardığı məqsədyönlü siyasət, orduya diqqət və qayğı nəticəsində Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş əzmi və mənəvi-psixoloji hazırlığı yüksək səviyyəyə çatdırılıb, Silahlı Qüvvələr yeni müasir döyüş texnikası, silah-sursat və avadanlıqlarla daim təchiz ediliir. Artıq Azərbaycan Respublikasının Silahlı Qüvvələri döyüş mövqeyində öz sözünü düşmənə diqtə edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar martın 31-də hərbçilərlə keçirdiyi görüşdə demişdir:

"Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".

Aprel döyüşləri bir daha onu göstərdi ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirməyə və ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir.

Siz - Azərbaycan Ordusunun cəsur əsgərləri təlimlərdə, döyüş hazırlığı və ictimai-siyasi hazırlıq məşğələlərində bundan sonra da hərb işini daha da vicdanla öyrənməli, babalarımızın Böyük Vətən müharibəsində, ata və qardaşlarımızın Qarabağ savaşında və aprel döyüşlərində göstərdikləri qəhrəmanlıq və igidlikləri özünüzə örnək bilməli, Azərbaycan torpaqlarının düşmən işğalından azad olunması üçün aparılacaq döyüşlərdə onların bu igidliklərini təkrar etməyə hər an hazır olmalısınız. Çünki siz Koroğlu, Babək, Şah İsmayıl Xətai, Həzi Aslanov, Mehdi Hüseynzadə, Mübariz İbrahimov, Murad Mirzəyev, Çingiz Qurbanov kimi Azərbaycan qəhrəmanlarının həmvətənlərisiniz.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

*Nümunəvi xidmət*

# Vətəni varlığınla qoru, Azərbaycan əsgəri!

*2017-ci ilin mart ayı... Elə bir ərəfədə əsgərlərimizlə görüşə gəlmişik ki, Qarabağın füsunkar təbiətini, gözəlliyini görmək xoşbəxtliyini də yaşayırıq. İndi dağlar ağ saçlarını yolub, sinəsinə yaşıl xalı sərməyə başlayıb. Elə bil addım atıb bizə yaxınlaşır, olduğundan daha əzəmətli və daha zəhmli görünür dağlar. Ancaq bununla yanaşı bizlərə könül xoşluğu ilə hərarət bəxş edir. Hiss olunur ki, təbiət bizim düşündüyümüzdən daha canlı, daha hərəkətlidir.*



Təbiətin əksinə olaraq insan xarakteri çox zaman qapalı və dərkedilməz olur. İlk baxışda özünü büruzə vermir. Yalnız ekstremal vəziyyətlərdə bütün çılpaqlığı ilə üzə çıxır, kimin nəyə qadir olduğu aydınlaşır. Bəzən bir fədakarlığına görə kimsə hamıya tanınır. Adı dillər əzbəri olur.

Fevralın əvvəllərində Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən qiymətli hədiyyə ilə mükafatlandırılan, şəxsi heyət arasında adını nümunəvilər sırasına yazdıran Elməddin Qurbanov kimi. Füzuli rayonunun Şıxlı kəndindən olan əsgərimiz Müdafiə naziri ilə görüşünün xoş anlarını çözələyir, dilə gətirir: "Həyatımda ən xoşbəxt an Müdafiə naziri ilə görüşməyim və ondan qiymətli hədiyyə almağım oldu. Həmin gün çox həyəcanlı idim. Ancaq cənab nazir mənimlə söhbət etdikdən sonra həyəcanım bir az azaldı. Həmin anı mən sözlə deyə bilmərəm. Çox xoşbəxt idim".

Söhbət zamanı əsgər Qurbanov ordu rəhbəri tərəfindən bir neçə silahdaşına qiymətli hədiyyənin verilməsini hərbçilərimizə ən yüksək diqqətin bariz nümunəsi hesab etdi: "O, əsgərlərlə çox səmimi bir söhbət apardı. Aldığım mükafatla bağlı isə deyə bilərəm ki, bu, nazirin əsgərlərə böyük etimadının göstəricisidir. Biz əsgərlər də bu etimadı doğrultmaq üçün əlimizdən gələni əsirgəməyəcəyik. Çalışacağıq ki, komandirlərimizin dəstəyi və diqqəti sayəsində inamla irəliləyək. Torpaqlarımızı düşmən tapdağından azad edək".

- Bir daha əmin oldum ki, tapşırıqların dəqiq və qüsursuz yerinə yetirilməsi, hərbi texnikaların dərindən mənimsənilməsi, hərb işinin mükəmməl öyrənilməsi insanı uğurdan-uğura aparır, - deyə əsgər Elməddin Qurbanov sözünə davam etdi. - Bu hədiyyə məni zirvələr fəth etməyə ruhlandırır. Bu amil mənim üçün əhəmiyyətli olduğu qədər qürurvericidir.

Söhbətimiz bir qənaətə gəlməyə imkan verdi ki, əsgər Elməddin Qurbanovun simasında Azərbaycan əsgəri vətənsevər, cəsarətli və qətiyyətlidir. Bəli, yüksək döyüş və mənəvi hazırlığa malik əsgər Vətənin gücü deməkdir. Bu gün Azərbaycan Ordusunun qüdrəti deməyə əsas verir ki, əsgərlərimiz torpaqlarımızı işğaldan azad edəcəklər. O torpaqlara bir daha yad izlər dəyməyəcək. Ona görə bu Vətəni üryinlə, varlığınla qoru, Azərbaycan əsgəri!

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
N.PƏNAHOVUNDUR**

# Tumurcuqlar çiçəkləyib!..

(esse)



Yazdı...

Bu yaz bir başqa yazdı...

Bayaqdan bəri baxışlarım ağacların budaqlarında gördüyüm çiçəkləmiş tumurcuqlardan üzülmür. Ağacı budaqlara, budağı tumurcuqlara - çiçəklərə Vətən bilirəm. Vətənə bunca bağlılıq könül xoşluğuna dönür...

Gözlərimizdən könlümüzə, könlümüzdən ömrümüzə süzülən "Gözəlim Bahar" dediyimiz yaz fəsli-di. Gəlişi də şahanədi, yerişi-duruşu da, bənövşə təbəssümü də, nərgiz baxışı da,... Məmməd İlqar demişkən, nə göz doyur, nə könül əl çəkir...

Niyyət tutub yaz yağışına ovuc açarlar. Bu ilki yazın yağışına ovuc açanların dönməz niyyəti eynidi: torpaqlarımız işğaldan azad edilsin. O yerlərdə nərgiz də, bənövşə də, quzuqulağı da, dağaran da, yemlik də, ... illərin o üzündə necə boy göstərirdisə, elə boy göstərsin. Tufarqanlı Abbasın misralarıyla oxşayaq bənövşəni...

Dağların daş sinəsinin, çeşmələrin nəfəsinin, bulaqların səsinin, ağacların budaqlarının, budaqların yarpaqlarının, çəmənlərin yanaqlarının,... yaralarına nərgizdən məlhəm diləyək: kərəm elə, bu yaralarl titrək ləçəyinlə sarı, nərgizim!.. Hərdən əsən, hərdən kəsən mehi qılığa tutaq: yaralara sarğı ol, yaraların sarğısı ol!..

Ovcumuz yaz yağışıyla dolunca baxışlarımız göy üzünün göylüyünə sığal çəkə...

Məcrasına sığmayan çaylar urvatsız kör-kötüyü uzaqlaşdıra. Göy üzündə görünən göyqurşağını göylərin yerlərə gözaydınlığı biləək: "Gözləriniz aydın, buludlar dağıldı, qada sovuşdu. Ağaclarınızın tumurcuqları çiçəkləyib. Təbiət möhtəşəmliklə gözəlləşir..."...

Ağacların tumurcuqları Cocuq Mərcanlıda da yaqin çiçəkləyib. Tumurcuqların çiçəkləməsi, çiçəklərin qədəri göz doydurur, duruşu, düzümü könül açır. Bu ecazkar düzümün vəsfinə uyarlı söz tapmaq mümkünmü? Çiçəklər yeri göyə bənd eləyəcək, göyü yerə. Bu gözəlliyi tabloya köçürməyə Səttar fırçası gərəkdi...

Cocuq Mərcanlının işıqları yanır... Cocuq Mərcanlıda evlər tikilir...

Cocuq Mərcanlıda cocuq mərcanlılar baxışlarını qəribsəmiş ağaclarının çiçəklərindən üzə bilmir. Bu çiçəklər 25 ilin həsrətini bitirdi. 25 ilin can üzən, ruh sarsıdan sıxıntıları ömürlərdən xəzan çağı şah budaqdan saralmış yarpaqlar necə düşürsə, eləcə düşdü...

Ağacların tumurcuqları çiçəkləyib...

Yaxınlarda Şuşada, Cıdır düzündə, İsa bulağında,... tumurcuqlardan boy göstərən çiçəklər Azərbaycan əsgərinin ayaq səslərinə boylanacaq. "Gəldinizmi?" - sorğusunun doğmalığı yerə-göyə sığmayan sevincə bürünəcək. Bu ünsiyyət ilahi ünsiyyət biləcəyik!..

...Bu ilki yazda ötən ilki yazın qoxusu var...

Gen dərələr sellənəcək, Ana Torpaq çəmən-çəmən güllənəcək, ağacların çiçəyi də, çiçəklərin göyçəyi də, göyçək-göyçək gülümsəyən çiçəklərin ləçəkləri də dillənəcək: tumurcuqlar gələn il daha gözəl çiçəkləyəcək!..

Təbiətə baxıram, cəmiyyəti düşünürəm. Əsl vətəndaş Vətənə varlığıyla bağlanandı. Tumurcuqların çiçəkləməsi təbiəti necə gözəlləşdirirsə, əsl vətəndaş da təbiəti elə gözəlləşdirir...

Bu yaz bir başqa yazdı. Tumurcuqlar bu il o qədər ecazkarlıqla çiçəkləyib ki!..

**Rəşid HÜSEYNOV,
əməkdar jurnalist**

# Xəbərlər:
## hadisələr, faktlar

### İranda prezidentliyə iddiaçıların sayı 644-ə çatıb



İranda prezident olmaq istəyənlərin sayı 644 nəfərə çatıb.

İran İslam Respublikası Seçki Komissiyasının katibi Əli Purəli Motləq seçkilərə namizədliklə bağlı 644 nəfərin qeydiyyatdan keçdiyini bildirib. Onlardan 21-i qadındır.

İranda 12-ci prezident seçkilərində iştirak etmək istəyənlərin adlarının qeydiyyata alınması prosesi aprelin 11-dən başlanıb və 15-də başa çatacaq.

Seçkilər mayın 19-da keçiriləcək.

### Almaniyanın Baş prokurorluğu Dortmundda baş verən partlayışı terror aktı sayır



Bu barədə qurumun nümayəndəsi bildirib. "Cinayətin əlamətləri onun terror aktı olduğuna işarə edir və buna görə də biz təhqiqatı öz üzərimizə götürmüşük", - deyə o qeyd edib.

Xatırladaq ki, aprelin 11-də "Borussiya" futbol klubu UEFA Çempionlar Liqasının dörddəbir final mərhələsi çərçivəsində "Monako" komandası ilə qarşılaşmalı idi. Oyuna bir saatdan az vaxt qalmış stadiona gedən yerli komandanın avtobusunun yanında partlayış baş verib. İnsident nəticəsində "Borussiya" klubunun futbolçusu Mark Bartra və komandanı müşayiət edən polis əməkdaşı yaralanıb. Oyunun vaxtı isə dəyişdirilərək aprelin 12-nə keçirilib.

### Türkiyə və Rusiya prezidentləri Suriyadakı vəziyyəti müzakirə ediblər



Türkiyə və Rusiya prezidentləri arasında telefon danışığı olub.

Rəcəb Tayyip Ərdoğan və Vladimir Putin Suriyadakı vəziyyəti müzakirə ediblər.

Telefon danışığı zamanı tərəflər Suriyada atəşkəsin möhkəmləndirilməsi məqsədi ilə birgə fəaliyyətin önəmini vurğulayıb, Astana və Cenevrə prosesinə dəstəyi davam etdirmək niyyətlərini bildiriblər. Həmçinin aprelin 4-də Suriyada kimyəvi silahdan istifadə ilə bağlı insidentin beynəlxalq səviyyədə araşdırılmasının vacibliyi diqqətə çatdırılıb.

Prezidentlər iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması istiqamətində atılan addımların intensivləşdirilməsinin önəmini də qeyd ediblər.

### ABŞ döyüş şəraitində ilk dəfə ən güclü qeyri-nüvə bombasından istifadə edib



ABŞ döyüş şəraitində ilk dəfə olaraq ən güclü qeyri-nüvə bombasından istifadə edib.

ABŞ Hərbi Hava Qüvvələri tərəfindən Əfqanıstanın Nanqaxar şəhərində İŞİD terror qruplaşmasının tunel kompleksinə ən böyük qeyri-nüvə bombası olan "GBU-43" bombası atılıb.

ABŞ Müdafiə Nazirliyinin əməkdaşı Adam Stump bombalı hücumun yerli vaxtla səhər 7.32-də "MC-130" tipli bombardman təyyarəsi ilə həyata keçirildiyini bildirib. O, sözügedən bombanın ABŞ hərbi qüvvələrinin arsenalındakı ən böyük qeyri-nüvə bombası olduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, ABŞ ordusunda MOAB (Massive Ordnance Ariblast Bomb) adı ilə tanınan bombaya "bütün bombaların anası" da deyilir.

**AZƏRTAC-ın
materialları əsasında**

# Əlahiddə Ümumqoşun Ordu üzrə bədii özfəaliyyət kollektivlərinin baxış-müsabiqəsinə yekun vurulub



Naxçıvan Qarnizonunun Zabitlər Evində Əlahiddə Ümumqoşun Ordu üzrə bədii özfəaliyyət kollektivlərinin bədii yaradıcılıq fəaliyyətinə baxış-müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Tədbirdə çıxış edən Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Mirqiyas Rüstəmov son illərdə ordumuzun Naxçıvanda yerləşən hissələrinə göstərilən dövlət qayğısından danışıb və bu istiqamətdə həyata keçirilən tədbirlərin böyük əhəmiyyəti olduğunu vurğulayıb.

Polkovnik tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, bütün bunlar şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin və hərbi vətənpərvərlik ruhunun yüksəldilməsində böyük rol oynayır. Xidməti vəzifəsini şərəflə yerinə yetirən əsgərlərimizin bədii yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması və düzgün istiqamətləndirilməsi də həyata keçirilən tədbirlərin tərkib hissəsinə çevrilib. Sonra zabit qalibləri təbrik edərək onlara xidmətlərində uğurlar arzulayıb.

Müsabiqənin qaliblərinə diplom və fəxri fərmanlar təqdim olunub.

Sonda Əlahiddə Ümumqoşun Ordunun bədii özfəaliyyət kollektivləri "Əsgər ocağı" adlı konsert proqramı ilə çıxış ediblər. Tədbirdə vətənpərvərlik mövzusunda şeirlər, mahnılar səsləndirilib, milli rəqslər ifa edilib.



Konsert proqramı iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

**Leytenant
Nəriman NƏCƏFOV**

# Hərbi Akademiyanın dinləyiciləri üçün "Azərbaycanın hərbi-sənaye potensialı" mövzusunda praktiki məşğələ keçirilib

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik kursunun tədris proqramına uyğun olaraq dinləyicilər üçün Müdafiə Sənayesi Nazirliyinin müəssisəsində "Azərbaycanın hərbi-sənaye potensialı" mövzusunda praktiki məşğələ keçirilib.

Dinləyicilərə nazirliyin strukturu, vəzifələri, müəssisələrdə istehsal olunan hərbi təyinatlı məhsullar haqqında məlumat verilib. Onlar hərbi təyinatlı məhsulların istehsalı prosesi və hazır məhsullarla tanış olublar.



Praktiki məşğələdə müasir müharibələrdə yüksək texnologiyalı silahların rolu vurğulanaraq qeyd olunub ki, ötən ilin aprel döyüşlərində ordumuzun düşmən üzərində əldə etdiyi qələbə müdafiə sənayemizin bu cür silahların istehsalı sahəsindəki nailiyyətlərini nümayiş etdirdi.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan istehsalı olan "Tufan" ilk milli zirehli döyüş maşını İstanbulda nümayiş ediləcək

*Mayın 9-dan 12-dək Türkiyənin İstanbul şəhərində XIII "İDEF-2017" Beynəlxalq sərgi keçiriləcək.*

Sərgidə Azərbaycan Müdafiə Sənayesi Nazirliyi tərəfindən 260 adda məmulat nümayiş etdiriləcək. Həmin sərgidə ilk dəfə olaraq nazirliyin müəssisələrində istehsal olunan 8,6x70 millimetrlik "Vaşaq" snayper tüfəngi, 40 millimetrlik QP-25 lüləaltı qumbaraatanı, 12,7 millimetrlik silahla təchiz edilmiş məsafədən idarə olunan döyüş modulu, "Tufan" milli zirehli maşını kimi bir sıra yeni məhsullar ziyarətçilərə təqdim olunacaq.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Müdafiə Sənayesi naziri Yavər Camalov Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı çıxışı zamanı deyib.

Nazir bildirib ki, sərgi müddətində Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında sazişin də imzalanması gözlənilir. Sərginin keçiriləcəyi günlərdə hərbi-texniki əməkdaşlığın müxtəlif istiqamətləri üzrə razılaşmaların əldə olunması, eləcə də məmulatların ixracı üzrə memorandum və niyyət protokollarının imzalanması nəzərdə tutulur.

# Valideynlər razılıq edirlər

- Əsgər Ramal Vəliyevin valideyniyəm. Ramal ali təhsillidir. O, Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib. "N" hərbi hissəsində xidmət edir. Vəzifəsi atıcıdır. Nümunəvi əsgərdir. Bir valideyn olaraq həmişə ona tövsiyəm o olub ki,Vətənə övladlıq borcunu şərəflə yerinə yetir. 3-cü dəfədir ki, "Açıq qapı" günündə iştirak edirəm. Novruz bayramı münasibətilə keçirilən "Açıq qapı" günündə də Ramalı ziyarət etmək üçün qardaşı, dayısı, xalası və bir də nişanlısı ilə birlikdə gəlmişik. Hərbi hissədə yaradılan şəraitdən çox razıyıq. Yeməkxanası, yataqxanası, bütün məişət otaqları ən müasir formada tikilib. Diqqətimizi çəkən məqamlardan biri də o oldu ki, hərbi hissədə əsgərlərin sağlamlığı möhkəm qorunur. Camaşırxanada ən müasir avadanlıqlar quraşdırılıb. Əsgərlərin yeməklər evdə bişirilən yeməklərdən heç nə ilə fərqlənmir. Bütün bunlar Prezidentimizin orduya göstərdiyi diqqətin sayəsindədir. Ona çox minnətdarıq.

**Əsgər anası
Mətanət VƏLİYEVA,
Salyan rayonu,
Qarabağlı kəndi**

- Orduda keçirilən ənənəvi "Açıq qapı" günləri təqdirəlayiqdir. Hər bir valideyn həmin günlərdə övladının xidmət yeri ilə tanış olmaq imkanı qazanır. Hərbi hissələrdə "Açıq qapı" günlərinin keçirilməsini bir əsgər valideyni kimi alqışlayıram. Əslimiz Borçalı mahalındandır. Bakı şəhəri, Nizami rayonunda yaşayırıq. Oğlum Alı Həsənli 9 aydır ki, Azərbaycan Ordusunun əsgəridir. O, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alıb. Xidmət etdiyi hərbi hissənin mühəndis bölüyündə rabitəçi vəzifəsindədir. İkinci dəfədir ki, "Açıq qapı" günündə iştirak edirik. Əsgərlərimiz üçün yaradılan şərait, onların ərzaq və geyim təminatı yüksək səviyyədədir. Mən bir əsgər valideyni kimi ölkə Prezidentinə minnətdarlığımı bildirirəm.

**Əsgər atası
Nofəl HƏSƏNOV,
Bakı şəhəri,
Nizami rayonu**

- Mən də əsgər Tural Niftəliyevin valideyniyəm. Siyəzən rayonundan gəlmişik. Anası Məlahət Niftəliyeva, əmisi oğlu Ziya Niftəliyev və onun 3 yaşlı qızı Şəfiqə də Turalı, o cümlədən hərbi hissənin bütün əsgərlərini ziyarət etməyə gəlmişik. Bununla üçüncü dəfədir ki, "Açıq qapı" günündə iştirak edirəm. Hərbi hissənin ərazisinə ayaq basdığım ilk andan burada əsgərlərimiz üçün yaradılan şəraiti görüb ürəyim dağa döndü. Bu gün ordumuzun təminatı çox yüksəkdir. Dövlət başçımız tərəfindən orduya ayrılan xərclər ilbəil artırılır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hər zaman ordumuzun yanındadır, Azərbaycan əsgərinin yanındadır. Silahlı Qüvvələrin Ali Baş Komandanı daim cəbhə bölgələrinə gedib hərbçilərimizlə görüşür, xidmətdə fərqlənənləri mükafatlandırır. Sağ olsun, ölkə rəhbərimiz. Ordumuzla bağlı bütün xəbərləri izləyirik. Xalq ordunun, ordu xalqın yanında olmalıdır. Bu birlik keçən ilin aprel döyüşlərində bir daha öz təsdiqini tapdı.

**Əsgər atası
Zakir NİFTƏLİYEV,
Siyəzən rayonu**

Mayor Yunusov Vaqif Rəcəb oğluna və baş leytenant Qurbanov Ömür Ömər oğluna verilmiş zabitin şəxsi vəsiqələri itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 135
Nüsxə 4650